AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

21 iyul 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 28 (3591)

AZƏRBAYCAN QLOBAL TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİNƏ ÖZ TÖHFƏSİNİ VERƏN REGİONAL GÜCDÜR

Azərbaycanla Aİ arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması əlaqələrə yeni impuls verəcək

Mötəbər beynəlxalq təşkilatlarla əməkdaşlıq Azərbaycanın xarici siyasət kursunda əsas yerlərdən birini tutur. Təcrübə göstərir ki, rəsmi Bakının ortaya qoyduğu mövqe həm də respublikamızın yürütdüyü xarici siyasətin məzmununu nümayiş etdirir. Bu məzmun isə Azərbaycanın siyasi kursunun tamamilə müstəqil olduğunu, milli maraqlarımızı, dövlətin qlobal miqyasda mövqelərini layiqincə qoruduğunu göstərir.

Ölkəmiz Avropa İttifaqı ilə sıx əməkdaşlığa da xüsusi önəm verir və son illər bu əməkdaşlıq daha da genişlənməyə başlayıb. Xüsusən də İkinci Qarabağ müharibəsindəki zəfərdən sonra regionda yaranan reallıqlar əlaqələrdə yeni impuls yaradıb. İyulun 18-də Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin Azərbaycana səfəri, Prezident İlham Əliyevlə keçirilən görüşü, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması və xanım Ursula Fon der Lyayenin mətbuata bəyanatında ölkəmizin mövqeyi ilə bağlı səsləndirdiyi fikirlər bunu bir daha təsdiqləyir.

Azərbaycanla Avropa İttifaqı arasında paraflanan "Tərəfdaşlıq prioritetləri" sənədi rəsmi Bakının xarici siyasətinin növbəti uğuru sayılır. Əməkdaşlığın davamı olaraq münasibətlərdə yeni səhifə açan sənəddə qeyd edildiyi kimi, əlaqələrin daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq Azərbaycan və Aİ tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb. Sənəddə, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında vizaların ləğvi sahəsində dialoqun perspektivləri də əksini tapıb.

Görüşdə Prezident İlham Əliyev Azərbaycanla Aİ arasında imzalanan Anlaşma Memorandumunu Avropanın yeni enerji yol xəritəsi adlandırıb və tərəflərin şəbəkənin qurulması üzərində daha fəal iş aparılmalı olduğunu bildirib.

Bütün bunlar bu gün Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin inkişafına, transmilli layihələrin reallaşdırılmasına və qlobal təhlükəsizlik məsələlərinə öz töhfəsini verən regional güc kimi qəbul edildiyinin bariz nümunəsidir.

QƏTİYYƏTLİ MÜBARİZƏ, VƏTƏNDAŞ MƏMNUNLUĞU XİDMƏTİMİZİN TƏMƏLİDİR

İyulun 15-i Daxili İşlər Nazirliyində 2022-ci ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan respublikanın daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov bu ilin birinci yarısının növbəti uğurlu hesabat dövrlərindən olduğunu, daxili işlər orqanları və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində gündəlik vəzifələrin öhdəsindən layiqincə gəldiyini, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə təhlükəsizliyin etibarlı təmin edildiyini vurğulayıb.

Nazir məmnunluqla qeyd edib ki, daxili işlər orqanlarının fəaliyyətini həmişə yüksək qiymətləndirən cənab Prezidentin sərəncamları ilə ictimai təhlükəsizliyin və asayişin təmin edilməsində, cinayətkarlığa qarşı mübarizədə xüsusi xidmətlərinə, qarşıya qoyulmuş tapşırıqların icrasında fərqləndiklərinə görə 26 əməkdaş dövlət mükafatlarına layiq görülüb, habelə rəhbər vəzifəli 4 əməkdaşa ali xüsusi rütbə verilib.

İlin ikinci yarısında da qarşıda mühüm vəzifələrin durduğunu qeyd edən general-polkovnik V.Eyvazov onların ətraflı müzakirə edilməsi, xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün əlavə təşkilati tədbirlərin müəyyən edilib həyata keçirilməsinin vacibliyini bildirib.

Hesabat məruzəsi ilə çıxış edən nazirin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimov ötən 6 ayda daxili işlər

və prokurorluq orqanları üzrə 17.411 cinayətin qeydə alındığını, onların 84 faizinin böyük ictimai təhlükə törətməyən və az ağır növlər olduğunu, 90,2 faizinin açılmasının təmin edildiyini, 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə qeyri-aşkar şəraitdə baş vermiş cinayətlərin və mülkiyyət əleyhinə olanların 2 faiz, o cümlədən oğurluqların 2,7, mənzillərdən edilələrin 4,9, soyğunçuluqların 9,7, quldurluqların 0,8, hədə-qorxu ilə tələb etmələrin 1,2, avtonəqliyyat vasitəsini qaçırmaların açılmasının 2,2 faiz yaxşılaşdığını qeyd edib. Prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 233, “isti izlər”lə 1207 cinayətin açıldığını, 4.832 hüquqazidd əməlin qarşısının alındığını, axtarışda olan 2.685, o cümlədən ağır və xüsusilə ağır cinayətlərdə təqsirləndirilən 295 şəxsin tutulduğunu, dövlətə, hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın 89,2 faiz ödətdirildiyini vurğulayıb.

Məruzəçi mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilmiş tədbirlərlə 473 kriminal qrupun zərərsizləşdirildiyini, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 125 nəfərin cinayət məsuliyyətinə cəlb edildiyini, ötən ilin 6 ayı ilə müqayisədə qeyri-leqal dövriyyədən 132 kiloqram çox – 1 ton 975 kiloqram narkotik vasitə çıxarıldığını, qanunsuz kultivasiya olunan 105 ton narkotik xassəli bitkinin aşkarlanıb məhv edildiyini nəzərə çatdırıb.

Ardı 2-ci səhifədə.

QƏTİYYƏTLİ MÜBARİZƏ, VƏTƏNDAŞ MƏMNUNLUĞU XİDMƏTİMİZİN TƏMƏLİDİR

Əvvəli 1-ci səhifədə.

Həmçinin bildirib ki, vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində mühüm vəzifələrin icrası çərçivəsində Nazirliyin rəhbərliyi tərəfindən 1.362, o cümlədən kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın ayrı-ayrı şəhər və rayonlarında 748 vətəndaşın qəbulu həyata keçirilib, qaldırılan məsələlərin əksəriyyəti öz qanuni həllini tapıb.

Məruzəətrafı çıxışlarda bir sıra ərazi polis orqanlarının rəisləri görülmüş işlər, əldə olunmuş nəticələr, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə planlaşdırılan tədbirlər barədə məlumat veriblər.

Kollegiya iclasına yekun vuran nazir, general-polkovnik V.Eyvazov cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində müsbət nəticələrin inkişaf etdirildiyini diqqətə çatdıraraq xidməti fəaliyyətin səmərəliliyinin daha da artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Eyni zamanda, vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı

cənab İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu xatırladan nazir cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

Narkotiklərlə mübarizənin vəziyyətinə toxunan nazir V.Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirib. Yeniyetmələr və gənclər arasında aparılan antinarkotik təbliğatın əhəmiyyətini nəzərə çatdıraraq bu qəbildən tədbirlərin davamlı və məqsədyönlü olmasını, fəaliyyətin ölkədə narkotiklərə olan tələbatın azaldılması məqsədi üzərində qurulmasını tələb edib.

Müasir texnologiyaların tətbiqinin və idarəetmədə elektronlaşdırmanın genişləndirilməsinin zəruriliyini, hüquqi və fiziki şəxslərə məxsus obyektlərin, mənzillərin mühafizə-siqnalizasiya vasitələri ilə təmin edilməsinin, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin səlahiyyətinə aid vəzifələrin peşəkarlıqla yerinə yetirilməsinin vacibliyini Kollegiya iştirakçılarının nəzərinə çatdırıb.

Nazirliyin tədris müəssisələrində tədris və təlim prosesinin qabaqcıl beynəlxalq təcrübə əsasında inkişaf etdiyini də qeyd edən general-polkovnik Vilayət Eyvazov ixtisaslı kadr hazırlığı, kursant və dinləyicilərdə analitik düşüncə tərzinin, müasir texnologiyalarla işləmək və ekstremal şəraitdə düzgün qərar çıxarmaq bacarığının formalaşdırılması üzrə görülən işlərə, bu istiqamətdə əldə olunmuş müsbət nəticələrə diqqət çəkib, möhkəm intizamın təməli sayılan hərbi, fiziki və sıra hazırlığının yüksəldiyini bildirib.

Kollegiya müzakirə olunan məsələ üzrə qarşıda duran vəzifələrlə bağlı qərar qəbul etdi və növbəti iclasında onun icra vəziyyətinə dair hesabatların dinləniləcəyi nəzərə çatdırıldı.

Nazir Vilayət Eyvazov daxili işlər orqanlarına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsinə, infrastrukturunun yenilənməsinə göstərdiyi ali diqqət və qayğıya, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə şəxsi heyət adından minnətdarlığını bildirib və əmin edib ki, ölkədə asayişin, daxili təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da layiqincə yerinə yetiriləcək.

Külli miqdarda narkotik maddə götürülüb

Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən keçirilən növbəti xüsusi əməliyyat zamanı ölkə ərazisinə külli miqdarda narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə gətirilməsini və paylanılmasını həyata keçirən daha bir nəfər saxlanılıb. Nəticədə qanunsuz dövriyyədən 78 kiloqram narkotik vasitə və psixotrop maddə çıxarılıb.

Belə ki, Baş İdarəyə Yevlax rayon sakini Seymur Hüseynovun ölkə ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsini həyata keçirən əsas fiqurlardan biri olması barədə əməliyyat məlumatı daxil olub. Dərhal həmin şəxs əməliyyat nəzarətinə götürülüb. Onun qanunsuz əməlləri və xarici ölkələrdə yaşayan narkotacirlərlə əlaqələri əməliyyat-texniki tədbirlərlə tam sübuta yetirilib. Həmin şəxs qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə göndərilən külli miqdarda narkotik vasitəni həmin narkotacirin göstərişi ilə Füzuli rayonunun, Araz Dilağarda kəndi ərazisində qəbul edib Yevlaxa gətirən zaman Baş İdarə əməkdaşları tərəfindən saxlanılıb. Seymur Hüseynovun üzərinə, həmçinin idarə etdiyi "Lifan" markalı avtomobilə baxış zamanı ümumilikdə 78 kiloqram, o cümlədən 47 kiloqram heroin, 26 kiloqram marixuana, 4 kiloqram metamfetamin, 1 kiloqram tiryək və 500 ədəd psixotrop tərkibli satışı qadağan edilən metadon həbi aşkar edilib. Aparılan araşdırmalarla narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan Seymur Hüseynovun Birinci Qarabağ müharibəsi əlili olduğu, narkotiklərin daşınmasında istifadə etdiyi avtomobilin isə ona dövlət tərəfindən verildiyi müəyyən edilib.

Qeyd edək ki, həmin şəxs saxlanılan zaman polis əməkdaşlarından yayınmağa çalışıb və ehtiyatsızlıqdan idarəetməni itirərək qəza törədib. Qəza zamanı sürücü xəsarət almayıb.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Narkotiklərin qanunsuz dövriyyəsində təqsirli bilindiyi üçün saxlanılan şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Seymur Hüseynovun xaric və ölkə daxilindəki cinayət əlaqələrinin müəyyən edilməsi istiqamətində əməliyyat-axtarış və əməliyyat-texniki tədbirlər davam etdirilir.

Anar Qafarov,
polis mayoru

Səngərdə olduğu kimi...

Onlar hər işdə daha peşəkar olduqlarını sübut edirlər

Etika Akademiyasının qazilər üçün "İkinci peşəm" layihəsi çərçivəsində daha 5 nəfər Vətən Müharibəsi qazisi- Elnur Ələkbərov, Orxan Batiyev, Şiraz Həsənov (DİN), Vüsal Həsənov(DİN) və Fərid Əlirzayev Veysəloğlu Şirkətlər Qrupuna daxil olan "Araz" supermarketlər şəbəkəsinin dəstəyi ilə Böyük Britaniyanın Maliyyə Menecerləri Assosiasiyasının beynəlxalq sertifikatını əldə ediblər.

Bu barədə qəzetimizə məlumat verən Etika Akademiyasının rəhbəri Günel İbrahim bildirib ki, "Araz" supermarketlər şəbəkəsi ilə əməkdaşlıq çərçivəsində baş tutan layihədə qazilər 4 ay ərzində İnsan Resurslarının İdarə Olunması ilə yanaşı, "İşgüzar etiket", "Sahibkarlığın inkişafı" təlimlərinə də qatılıblar. İştirakçılara "Araz" supermarketlər şəbəkəsinin İdarə heyətinin sədri Rəşad İbrahimov tərəfindən sertifikatlar təqdim edilib.

Görüşdə ərazi bütövlüyümüz uğrunda sağlamlıqlarını itirən, əlil, qazi olan Vətən övladlarının dövlətimiz tərəfindən diqqət və qayğı ilə əhatə olunduğu, bu məsələyə iş adamlarının və bir çox qeyri-hökumət təşkilatlarının da dəstəyi diqqətə çatdırılıb.

Qeyd edək ki, qazilər həmçinin "Araz" supermarketlər şəbəkəsinin İR komandasında təcrübə proqramı keçəcəklər.

Yeri gəlmişkən, layihənin icra olunmasında həm də əsas məqsəd Vətən müharibəsi qazilərinin yeni həyata adaptasiyasına dəstək olmaq, onların yeni vərdişlərə sahib olmalarını stimullaşdırmaqdır.

"Polis"

Gələcəyi güvənli əllərdədir

On beş yaşınadək ana şəfqətinin, ata qayğısının nə olduğunu bilməyən Məryəm artıq bu gün tək deyil, ona sahib çıxan dövlətin diqqət və qayğısı altındadır. Onu böyük ailəsinə qovuşduranlar isə həmkarlarımızdır...

Gecə saatlarında Suraxanı RPİ 31-ci Polis Bölməsinə küçədə bir azyaşlı qızın təkbaşına gəzməsi barədə məlumat daxil olub. Deyilən ünvana yollanan RPİ 31-ci PB-nin Yetkinlik Yaşına Çatmayanların İşləri üzrə baş inspektoru, polis mayoru

Rəsul Hüseynov Məryəmi idarəyə gətirib. Müəyyən olunub ki, 2007-ci il təvəllüdlü Məryəm hələ dörd yaşında olarkən atasını, ötən il isə anasını da itirərək kimsəsiz qalıb və o, küçələrdə müxtəlif yerlərdə gecələyir.

Rayon Polis İdarəsi YYÇPİTB-nin rəisi, polis polkovnik-leytenantı Əfqan Ağayev, eləcə də inspektorlar, polis kapitanları Səidə Bağırzadə və İlahə Balayeva Məryəmlə profilaktiki söhbətlər aparıb, psixoloji vəziyyətini yoxlayıb, diqqət və qayğı göstəriblər. Sonra hüquq və təhlükəsizliyin qorunması məqsədilə qanunda nəzərdə tutulan tədbirlərə başlanılıb. Rayon İcra Hakimiyyətinin məsul şəxslərinin iştirakı ilə akt tərtib edilərək o, Azərbaycan Uşaqlar İctimai Birliyi Uşaq sığınacağı-Reintaqrasiya Mərkəzinə yerləşdirilib.

Teymur Əlizadə,
polis mayoru

Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri profilaktik tədbirlər nəticəsində yabanı halda bitmiş narkotik tərkibli bitkilər aşkar olunub.

Bərdə regional qrupumuzdan verilən məlumata görə, tədbir zamanı rayonun Xocavənd kəndinin ərazisində yabanı halda bitmiş çəkisi 1 tondan artıq olan çətənə bitkisi yandırılaraq məhv edilib.

RUHUMUZU ƏSARƏTDƏN XİLAS ETMƏK ÜÇÜN...

Uca bir millətin Vətən sevgisini onlar bayraq kimi ucaltdılar

Qoşunların Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan 66 nəfər hərbi qulluqçusundan biri də baş çavuş Əkbərov Vüqar Seyid oğludur. O, 1990-cı il sentyabrın 12-də Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində doğulub. Məmmədqara Məmmədov adına tam orta məktəbdə təhsil alıb. Məzun olduqdan sonra Fövqəladə Hallar Nazirliyinin Akademiyasına hazırlaşsa da, qəbul imtahanında lazımi bal toplaya bilmədiyindən bu arzusuna çatmayıb.

2008-ci ilin oktyabr ayından 2010-cu ilin aprel ayınadək Vüqar Müdafiə Nazirliyinin Goranboy rayonundakı "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Hərbçi peşəsinə marağı və həvəsi səbəbindən Vüqar bir neçə il sonra Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunmaq üçün komandanlığa müraciət edib. Müraciəti müsbət cavablandırılıb və o, 2013-cü ilin may ayının 10-da Daxili Qoşunların Bərdə rayonunda yerləşən "N" saylı hərbi hissəsində motoatıcı taborun motoatıcı bölüyündə sürücü vəzifəsinə təyin edilib. Həmin hərbi hissədə motoatıcı taborun motoatıcı bölüyündə manqa komandiri-maşın komandiri, xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda qumbaraatan vəzifələri də hərbi qulluqçuya həvalə olunub. 2018-ci ilin may ayında qoşunların Qəbələ rayonundakı "N" saylı hərbi hissəsinə keçirilərək xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-qumbaraatan vəzifəsində də fərqlənib. 2019-cu ilin sentyabr ayında xidmətini Sumqayıtdakı "N" saylı hərbi hissədə davam etdirərək, xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-qumbaraatan köməkçisi vəzifəsinin öhdəsindən bacarıqla gəlib.

2020-ci ilin sentyabr ayının 27-də Vətən müharibəsi başlayanda Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələri ilə birlikdə Daxili Qoşunların xüsusi təyinatlılarına ilk gündən döyüş tapşırıqlarının icrası həvalə olunub. Sumqayıtda yerləşən "N" saylı hərbi hissə də xüsusi təyinatlı dəstənin şəxsi heyəti ön cəbhədə ayrı-ayrı qrupların tərkibində müharibə sınaqlarından keçib. Xüsusi təyinatlımız Cəbrayıl rayonundan başlayaraq Şuşa şəhərinədək igidliklə vuruşub.

Vətən müharibəsi iştirakçısı, "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri mayor Ələsgər Muxtarov bildirdi ki, Vətən müharibəsində Vüqar daim öndə gedib. Cəbrayıl rayonu ərazisində ermənilərin müdafiə xəttinin yarılması, atəş nöqtələrinin susdurulması, habelə Füzuli, Xocavənd, Xocalı rayonlarının bir sıra yaşayış məntəqələrinin, ayrı-ayrı yüksəkliklərin azad olunması, Şuşa uğrunda döyüşlərdə Vüqar təhkim olunmuş silahlarla işğalçılara qan uddurub.

"N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-istehkamçı, Vətən müharibəsi iştirakçısı çavuş Kamal Məmmədli qeyd etdi ki, 2020-ci il oktyabrın 2-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi yaxınlığında düşmənin 2-ci müdafiə səddinin yarılması zamanı o, sağ ayağından güllə yarası alıb. Çavuş Orxan İbrahimov döyüşçü yoldaşına yardım edərkən onların bir neçə metrliyində minaatan mərmisi partlayıb və Kamalın sol ayağını, qolunu qəlpələr zədələyib. Həmin anda Orxan da yaralanıb və kömək çağırmaq üçün sürünərək oradan kənarlaşıb, Siruz adlı döyüşçüyə Kamalın yerini deyib. Siruz Kamala yaxınlaşmağı bacarıb, onu ərazidən çıxararkən Vüqar atəş altında Siruza köməklik edərək silahdaşlarını təhlükəli yerdən uzaqlaşdırıblar. Yoldaşlarının fədakarlığı sayəsində Kamal sağ qalıb.

Vətən müharibəsi qazisi, ehtiyatda olan çavuş Rasim Hacıyev söylədi ki, Hadrut istiqamətində döyüşdə Vuqar qapalı kəllə-beyin travması alıb və hərbi qospitala göndərilib. "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-sanitar, Vətən müharibəsi iştirakçısı, "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-sanitar vəzifəsindən hazırda ehtiyata buraxılan çavuş Orxan Həsənovun verdiyi məlumata görə, noyabrın 6-da gecə saat 4-5 radələrində onların yerləşdikləri mövqe düşmənin zirehli texnikalarından, artilleriya vasitələrindən atəşə tutulub. Orxan bir neçə metrliyində kiminsə onu çağırdığını eşidib, yaxınlaşarkən Vüqarı üzü üstə uzanmış vəziyyətdə görüb. Ona ilk tibbi yardım göstərib və digər yaralılara yardım etmək üçün Vüqarın yanından getməli olub. Səhər açılanda isə onun cansız bədəni ilə qarşılaşıblar.

18.11.2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə hərbi qulluqçumuzun 2020-ci il noyabrın 9-da Şuşada hərbi əməliyyatda törənmiş zədələnmələrdən həlak olduğu yazılıb.

Şəhidimiz noyabrın 13-də Yuxarı Öysüzlü kəndinin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15, 24 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş V.Əkbərov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Yalçın Abbasov,
DİN Daxili Qoşunlarının veteranı

"Təlimçilər üçün təlim"

Nəticələr, perspektivlər müzakirə olunub

İyulun 11-15-i tarixlərində Budapeşt şəhərində Avropa İttifaqı Hüquq Mühafizə Təlimləri üzrə Agentliyi tərəfindən keçirilən "Təlimçilər üçün təlim" adlı təlimdə Daxili İşlər Nazirliyini Polis Akademiyasının Beynəlxalq əməkdaşlıq bölməsinin rəisi, polis polkovnik-leytenantı Elçin Orucov təmsil edib. Moldova, Gürcüstan, Azərbaycan və Ermənistandan olan nümayəndələrin iştirakı ilə keçirilən 5 günlük təlim CEPOL-un TOPCOP layihəsi çərçivəsində həyata keçirilib.

Müasir dövrdə onlayn və üzbəüz təlim üsulları, istifadə olunan proqram təminatları və ümumilikdə dərsin idarə edilməsini əhatə edən, eyni zamanda təcrübə mübadiləsi xarakteri daşıyan təlimdə ekspertlər tərəfindən əsasən onlayn təhsildə istifadə olunan proqram təminatları və işin asanlaşdırılması üçün beynəlxalq təcrübədən misallar verilib, müxtəlif simulyasiya xarakterli tapşırıqlar icra edilib.

Təlim boyunca elektron təhsilin əsas komponentləri, dərsin idarə edilmə platformaları, "ADDİE" (Təhlil, Dizayn, Hazırlama, Tətbiq etmə və Qiymətləndirmə), "ABC" (Əldə etmə, Müzakirə, Araşdırma, Hazırlama, Qruplarla iş və Təcrübə), Qarışıq öyrənmə modeli (elektron olaraq tələbələrin zəruri materiallarla təmin edilməsi, onlayn və üzbəüz dərslər) kimi tədris modelləri və s. mövzular geniş müzakirə edilib, bu sahədə bilik və bacarıqların artırılması üçün Təlimçi ekspertlər tərəfindən müxtəlif yarışlar keçirilib. Bundan başqa, dərsin planlaşdırılması, ehtiyacların müəyyən edilməsi, tələbələrin müxtəlif vasitələrlə (hədiyyələrin verilməsi, müəyyən vəzifələrə təyin olunmaları, mükafatlandırılmaları və s.) motivasiya edilməsi məqamlarına toxunulub. Dərslərin daha rəngarəng keçirilməsi məqsədilə internet üzərindən ictimaiyyətə açıq təlim saytlarının ("Moodle", "Kahoot", "Canva", "Mentimeeter", "Slido", "H5p.org" və s.) imkanlarından istifadə edərək dərslərin təşkil edilməsinin günümüzün tələblərinə uyğun olduğu bildirilib. Daha sonra Avropa İttifaqı Hüquq Mühafizə Təlimləri üzrə Agentliyinin (CEPOL) rəsmi internet səhifəsində keçirilməsi nəzərdə tutulan təlim proqramları barədə yenilənmiş məlumatların yerləşdirildiyi və müvafiq hüquq mühafizə orqanlarının əməkdaşlarının bu saytda qeydiyyatdan keçərək təlim imkanlarından faydalana biləcəkləri iştirakçıların nəzərinə çatdırılıb. Hüquq mühafizə orqanlarının əməkdaşları üçün təşkil edilən vebinar və digər onlayn təlimlərin təşkilində təhlükəsizlik imkanlarının da daim diqqətdə saxlanılmalı olduğu vurğulanıb.

Təlimdə həmkarımız Azərbaycan Respublikasının DİN-in Polis Akademiyası barədə təqdimatla çıxış edib. O, Akademiya barədə məlumat verərək burada yetişən gələcək polis zabitlərinin beynəlxalq səviyyədə təlimlərə cəlb olunaraq beynəlxalq təcrübəni öyrənə biləcəklərini və gələcək xidməti fəaliyyətlərində istifadə edəcəklərini qeyd edib. Tanıtım çarxının nəticəsi olaraq Gürcüstan və Moldova nümayəndələri Akademiyamızla daha sıx əməkdaşlıq imkanlarını nəzərdən keçirəcəklərini bildiriblər.

Tədbirin sonunda iştirakçılara "Təlimçilərin təlimi" sertifikatları təqdim olunub.

Yarışın qalibi "Qarabağ" oldu

Daxili İşlər Nazirliyinin Polis Akademiyasının şəxsi heyəti arasında "Şuşa ili" ilə əlaqədar keçirilən minifutbol üzrə Akademiya birinciliyi başa çatıb. Aprel ayından start götürən və 2 ay boyunca davam edən çempionatda ümumilikdə 14 komanda yarışıb.

Ən güclü dördlükdə "Qarabağ", "Suqovuşan", "Ağdərə" və "Kəlbəcər" komandaları top qovublar. Rəqiblərindən daha yaxşı futbol performansı nümayiş etdirən "Qarabağ" və "Suqovuşan" komandaları finalda qarşılaşıblar. Akademiya rəhbərliyinin, eləcə də azarkeşlərin maraq və coşquyla izlədiyi final oyunu "Qarabağ" komandasının böyük hesablı (4:2) qələbəsi ilə yekunlaşıb. Fəxri kürsünün 3-cü pilləsində isə "Kəlbəcər" komandası qərarlaşıb.

Qalib komandalar diplom, medal və qiymətli hədiyyələrlə mükafatlandırılıblar. IV kurs kursantı Nəbi Daşdəmirov turnirin ən yaxşı oyunçusu, III kurs kursantı Cavidan Quliyev ən yaxşı qapıçısı adına layiq görülüb. Yarışın hakimləri, "Fiziki hazırlıq" kafedrasının müəllimi, polis baş leytenantı Elman Həsənov, Aydın Baxşıyev və Bəxtiyar Gözəlov Akademiyanın rəisi, polis general-mayoru Canpolad Daanov tərəfindən "Fəxri fərmanla" təltif olunublar.

Qeyd edək ki, Aydın Baxşıyev və Bəxtiyar Gözəlov Azərbaycan Futbol Federasiyasının üzvləri, peşəkar hakimdirlər.

Teymur Əlizadə,
polis mayoru

Film kimi xilaskarlıq

Alovun içinə atıldı – bir canı qurtarmaq üçün...

“Evin yanması bir tərəfə, içəridə olan azyaşlının köməksiz qalması bir ailənin faciəsi ola bilərdi. Fövqəladə Hallar Nazirliyinin əməkdaşları yanğını söndürür, polis isə yanğında köməksiz qalan azyaşlını xilas etmək üçün yuxarı mərtəbəyə qalxırdı. Getdikcə güclənən alovun içərisində bir körpənin harayı hər kəsi çaşqın salmışdı. Göz-gözü görməyən tüstünün içindən uşaq qucağında çıxanda biz yerimizdə donub qaldıq”...



Bunu iyulun 18-də Xətai rayonunda hündürmərtəbəli binanın 17-ci mərtəbəsində baş vermiş yanğının şahidi olanlar danışırlar. Sosial şəbəkələrdə gündəmə çevrilən videogörüntülər də hər kəs tərəfindən rəğbətlə, qürurla qarşılandı. Həyatını təhlükəyə ataraq azyaşlını xilas edən polis əməkdaşı günün qəhrəmanıydı. Hamı o hadisədən, o polisin qorxmazlığından danışdı.



“Polisin xilaskar olduğunu öz həyatını təhlükəyə ataraq bir daha sübut edən **polis serjantı Akif Cərullayev** çevikliyi, cəldliyi və qorxmazlığı ilə seçilən əməkdaşlardandır. O, dəfələrlə belə ekstremal vəziyyətlərlə üzləşib və xilaskarlıq missiyasını layiqincə yerinə yetirib”. Bu fikirləri də bizimlə **ƏÇPA-nın 3-cü Patrul Bölüyünün komandiri, polis kapitanı Elvin Babayev** bölüşdü.

Ruhiyyə Əliyeva, polis kapitanı

Yollara yoldaş olanlar...

Xoş ünsiyyət, səmimi rəftar başucalığı gətirir



Yol-nəqliyyat hadisələrinin qarşısını almaq məqsədilə Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən mütəmadi olaraq reydlər və nəzarət-profilaktiki tədbirlər keçirilir. Bütün bunlarla yanaşı, DYP postlarında uzaq səfərlərə çıxan sürücülərin qısamüddətli istirahəti üçün yaradılan şərait də vətəndaş məmnunluğu ilə müşahidə olunur.

Sürücü-təlimçi Arzu Babazadə yazır: “Salyan postuna çatanda yorulduğumu hiss etdim. Avtomobilimdə də sərnişinlər vardı. Maşınımı stasionar postda saxlayarkən mənə gənc bir polis əməkdaşı yaxınlaşdı. Deyəsən, o da yorulduğumu hiss etmişdi. Bizə su da gətirdi, çay da. Dincimizi aldıqdan sonra yolumuza davam etmək istəyəndə o, mənə yenidən yaxınlaşıb maşını ehtiyatlı sürməyimi, qaydalara riayət etməyimi xahiş etdi. Düzü, bu yanaşmadan çox xoşhal oldum”...

Onlara səmimi münasibət göstərən həmkarımızın **Baş Dövlət Yol Polisi İdarəsinin 10-cu taqımının inspektoru, polis serjantı Əlisahib Cavadov** olduğunu da A.Babazadə minnətdarlıq hissi ilə qeyd edir.

Oxşar hadisə sosial-şəbəkə istifadəçisi Səbinə Pərvizinin də başına gəlib. O, yazır:

"Şamaxıdan Bakıya qayıdanda maşınımızda yaranan nasazlıq səbəbindən onu Qobustan postunun yaxınlığında park etdik. Bir neçə dəqiqədən sonra bizə bir polis əməkdaşı yaxınlaşdı. Vəziyyəti bildikdən sonra avtomobilimizin təmirinə kömək etdi"...

Onları yolda qoymayan həmkarımız isə **Baş Dövlət Yol Polisi İdarəsinə bilavasitə tabe olan Yol Patrul Xidməti Alayının YPX inspektoru, polis serjantı Elməddin Abdullayevdir.**

Ruslan Vəliyev, polis baş leytenantı

Suda boğulma zamanı ilk yardım

Suda boğulanı xilas edərkən ona arxa tərəfdən yaxınlaşmaq, saçlarından, paltarının yaxalığından və ya qoltuqaltı nahiyəsindən tutaraq üzünü yuxarı çevirməklə onunla birlikdə sahilə tərəf üzmək lazımdır. Batan şəxsin üzü mütləq suyun səthindən yuxarıda olmalıdır.

Suda boğulma zamanı ilk yardım qaydaları:

- dərhal “təcili yardım” çağırın;
- tibbi yardım göstərməzdən əvvəl zərərçəkənin əynindəki sıxıcı paltarları (qalstuk, kəmər və s.) çıxarın;
- cəld hərəkətlə zərərçəkənin ağız boşluğunu barmağınızla və ya dəsmalla dəniz yosunları və digər yad cisimlərdən təmizləyin;
- sağ dizinizi yerə qoyaraq, zərərçəkəni üzüaşağı və qarnı budunuza söykənməklə, dizdən bükülmüş sol ayağınızın üzərinə qoyun;
- əlinizlə onun kürəkləri arasındakı sahəyə təzyiq etməklə tənəffüs yollarından suyu xaric edin;
- zərərçəkəni üzüyuxarı yerə uzadın, qusma başladığı halda onun boğulmaması üçün başını yana çevirin, nəfəs alıb-almadığını, ürəyinin döyünüb-döyünmədiyini yoxlayın;
- zərərçəkən nəfəs almırsa, yuxarıda göstərildiyi qaydada tənəffüs yollarından suyu xaric edən kimi, ona süni tənəffüs vermək lazımdır. Əgər zərərçəkənin ürəyi dayanıbsa, süni tənəffüs hərəkətləri ilə yanaşı ürəyin qapalı masajını da icra edin. Bu reanimasiya tədbirlərini həkim gələnədək davam etdirmək lazımdır. Zərərçəkəni tibb müəssisəsinə çatdırmaq imkanı olarsa, bunu dərhal etmək, reanimasiya tədbirlərini isə yolda olarkən davam etdirmək lazımdır.

Zərərçəkən huşunu itirməyibsə, tənəffüs yollarından suyu xaric etdikdən sonra onun əynindəki yaş paltarları çıxarmaq, bədənini spirt və ya quru dəsmalla ovxalamaq, içməyə isti maye vermək, onu isti bir şeyə bürümək, ayaqlarını bir qədər qaldırmaq və dərhal xəstəxanaya çatdırmaq lazımdır.







Zərərçəkənin vəziyyəti hətta yaxşı olsa belə, o mütləq həkim tərəfindən müayinə olunmalıdır.

Bütün bədbəxt hadisələrdə olduğu kimi, suda boğulmadan qorunmağın ən yaxşı üsulu onun profilaktikasıdır. Uşaqlardan söhbət getdiyi halda bu daha aktualdır! Kiçik uşaqları heç zaman su ilə doldurulmuş vannada təkbaşına qoymayın, hovuzda, dənizdə çimərkən onlara daim nəzarət edin!

Natiq Abdullayev

Əməliyyat uğurla nəticələndi

Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi və Nizami RPİ 25-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində rayon ərazisindəki evlərin birindən pul və qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Saatlı rayon sakini, əvvəllər məhkum olunmuş E.Cəfərov saxlanılıb. Ətrafında aparılan tədbirlərlə onun müxtəlif vaxtlarda daha 4 evdən ümumilikdə 23 min ABŞ dolları, 700 manat, 81 min manat dəyərində qızıl-zinət əşyaları və noutbuk oğurlaması da müəyyən olunub.

◆◆◆

Suraxanı RPİ-nin 30-cu Polis Şöbəsinə iyulun 15-də Hövsan qəsəbəsi ərazisində Bakı şəhər sakini F.Firudin oğlunun döyülüb bıçaqla hədələnərək pulunun, qızıl boyunbağısının, bank kartlarının və idarə etdiyi “KİA” markalı avtomobilin quldurluq yolu ilə talanması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Sumqayıt sakinləri, əvvəllər məhkum olunmuş H.Hüseynov və M.Nəcəfov müəyyən edilərək saxlanılıblar.

◆◆◆

Nizami RPİ-nin 24-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində iyulun 11-də Bakı şəhər sakini İ.Hacıyevin içərisində pulu və sənədi olan çantasını soyğunçuluq yolu ilə talamaqda şübhəli bilinən Beyləqan rayon sakini, əvvəllər məhkum olunmuş R.Kazımov saxlanılıb.

◆◆◆

Bərdə RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş M.Əmiraslanovun yaşadığı evə baxış zamanı oradan “AKM” markalı avtomat silah, 2 patron darağı və 53 ədəd patron aşkar olunaraq götürülüb.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakinləri N.Məmmədov, S.Abbasov, Ə.Abbasov və E.Kərimov həmin avtomobildə Hövsan qəsəbəsi ərazisində saxlanılıblar.

◆◆◆

Sabunçu RPİ-nin 42-ci Polis Bölməsinə rayon ərazisindəki kafelərin birində Bakı şəhər sakini E.Mikayılovun çantasından 7 min manatının oğurlanması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini C.Həsənov müəyyən edilərək saxlanılıb.

◆◆◆

Sumqayıt ŞPİ-nin 5-ci Polis Bölməsinə iyulun 13-də 2 nəfərin şəhər sakini R.Quliyevi döyüb içərisində pulu olan cüzdanını və mobil telefonunu talamaları barədə müraciət daxil olub.

◆◆◆

Qaradağ RPİ-nin 10-cu Polis Bölməsinə müraciət edən Bakı şəhər sakini olan bir qadın qızının şəkillərindən istifadə edən şəxsin sosial şəbəkədə səhifə açaraq digər şəxsləri təhqir etməsini, habelə ona hədə-qorxu gəlib pul tələb etməsini bildirib.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində bu əməli törətməkdə şübhəli bilinən 19 yaşlı Y.Məmmədov müəyyən edilərək saxlanılıb.

◆◆◆

Bərdə RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş R.Bağırovun idarə etdiyi “BMW” markalı avtomobilə baxış zamanı oradan “TT” markalı tapança, patron darağı və 3 ədəd patron aşkar olunaraq götürülüb.

STATİSTİKA

Kriminal icmal

- İyulun 13-dən 20-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan cinayətlərdən 371-nin, eləcə də əvvəlki dövrlərdən bağlı qalan cinayətlərdən 61-nin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 272, o cümlədən borclu şəxs qismində axtarışda olan 167 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 19 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 21 nəfər ölüb, 11 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 165, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 23 fakt müəyyən edilib.

Natiq Cavadov

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9977
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik